Əl işdən soyumaz, ürək arzudan...



QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

№ 7-9 (7412-7414) 1933-cü ildən nəşr olunur Cümə axşamı, 9 fevral 2017-ci il. Qiyməti 40 qəpik

Xüsusi buraxılış

# Qəbələdə sosial-iqtisadi inkişafın yeni üfüqləri



**Bu gün Azərbaycan dünyada özünəməxsus layiqli yerini tutubdur. Bu hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir.**

**Heydər ƏLİYEV.**

*Azərbaycanda makroiqtisadi sabitlik təmin edilməlidir, inflyasiya birrəqəmli olmalıdır. Hesab edirəm ki, biz buna nail olacağıq. Makroiqtisadi sabitlik hər bir ölkənin iqtisadi dayanıqlılığı üçün əsas şərtlərdən biridir.*

**İlham ƏLİYEV.**



*2016-cı il Qəbələnin sosial-iqtisadi həyatında bir sıra uğurlar, nailiyyətlər və əlamətdar hadisələrlə yadda qaldı. Əldə edilən uğurlar əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ideyaların Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yüksək təşkilatçılıqla həyata keçirilməsinin məntiqi nəticəsidir.*

*Rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə keçirilən bugünkü geniş müşavirədə isə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 2016-cı ildə Qəbələdə həyata keçirilən sosial-iqtisadi inkişafın yekunlarına dair məruzəsi dinləniləcək və müzakirə olunacaqdır.*

*Qəzetimizin bu sayında Səbuhi Abdullayevin məruzəsi dərc olunur.*

*Bu gün Azərbaycanda, Qəbələdə əldə edilən uğurlar ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu müvəffəqiyyətlə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevin yorulmaz fəaliyyətinin nəticəsidir.*



**Fəttah HEYDƏROV,**
**Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, millət vəkili.**

## 2016-cı ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

**Hörmətli qonaqlar,**
**Hörmətli yığıncaq iştirakçıları!**

Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir.

Prezident cənab İlham Əliyev iclasda giriş nitqi söyləyərək 2016-cı ildə dünyada və regionda təhlükələrin artdığını, qanlı müharibələrin davam etdiyini, hətta yeni münaqişə ocaqlarının yarandığını, iqtisadi inkişafla bağlı vəziyyətin də ağırlaşdığını demişdir. Cənab Prezident qeyd etmişdir ki, bütün bunlara baxmayaraq, Azərbaycan 2016-cı ildə öz inamlı inkişafını davam etdirib, təhlükəsizlik tədbirləri təmin olunub, xalqımız sülh və əmin-amanlıq şəraitində yaşayıb. “Ölkəmizdə sabitliyin mənbəyi xalqın iradəsi və onun seçimidir”, - deyən dövlətimizin başçısı ötən il qarşıda duran bütün vəzifələrin icra edildiyini, neftin qiymətinin aşağı düşməsi fonunda yaranan böhranlı vəziyyətdən çıxış yolu tapıldığını bildirmişdir.

2016-cı ilin ölkəmizin tarixində dərin iqtisadi islahatlar dövrü kimi qalacağını vurğulayan cənab İlham Əliyev qəbul edilən qərarlar nəticəsində bundan sonra da qeyri-neft sektorunun inkişafının diqqət mərkəzində olacağını qeyd etmişdir.

Ümumi daxili məhsulun həcmi aşağı düşsə də, - bunun da əsas səbəbi neftin qiymətinin 3-4 dəfə aşağı düşməsidir və bundan irəli gələn investisiyaların, dövlət investisiyalarının azalmasıdır, - digər önəmli göstəricilər bizi sevindirir deyən cənab İlham Əliyev xüsusilə, respublikamızda qeyri-neft sektorunda sənaye istehsalının il ərzində 5 faiz artdığını bildirmişdir. Bu, o deməkdir ki, dövlət başçısının uzun illər ərzində apardığı siyasət öz nəticəsini göstərir. Sənayeləşmə, qeyri-neft sektorunun, sahibkarlığın inkişafı bu, gözəl nəticəni təmin etmişdir.

(Ardı 2-ci səhifədə).